UOT 33.314

*Hicran Əmirxan qızı MİRZƏYEVA*
*i.f.d., dos.,*
*akademiya_sm@mail.ru*

*Nailə Sabir qızı SARIYEVA*
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, magistr*
*sarıyev.seymur@bk.ru*

# AZƏRBAYCANDA YOXSULLUĞUN AZALDILMASI VƏ SOSİAL-İQTİSADİ İNKİŞAFIN ƏSAS İSTİQAMƏTLƏRİ

*Xülasə*

Ölkə əhalisinin həyat səviyyəsinin yüksəldilməsi hər bir sivil dövlətin prioritet vəzifəsidir. Əhali məşğulluğunun təmin olunması, yəni yeni iş yerlərinin yaradılması iqtisadi artımın təmin olunmasının əsas postulatlarındandır. İşsizliyin aradan qaldırılması üçün çoxprofilli sahibkarlıq formalarının inkişafı, əməkhaqlarının, əhalinin alıcılıq qabiliyyətinin artırılması, sosial fondların genişləndirilməsi və onlardan istifadənin yüksəldilməsi, dövlət büdcəsinin təhlili məsələləri məqalədə təhlil olunur.

**Məqsəd -** yoxsulluğun səbəbləri və onun azaldılmasının əsas istiqamətləri

**Metodologiya -** müqayisəli təhlil

**Tədqiqatın nəticələri -** yoxsulluğun azaldılması istiqamətləri əsaslandırılır.

***Açar sözlər: həyat səviyyəsi, yoxsulluq, əməkhaqqı, məşğulluq, sosial yardımlar, dövlət büdcəsi.***

*Giriş*

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ciddi sosial-iqtisadi problemlərlə qarşılaşdı. Bu heç də təsadüfi deyildi, çünki ədalətsiz və dağıdıcı müharibənin gətirdiyi yeni reallıqlar əvvəllər mövcud olan çətinlikləri daha da gərginləşdirmiş, dərin siyasi-iqtisadi böhran ictimai mühitin bütün sferalarını əhatə etmişdi. Ağırlaşan iqtisadi vəziyyət əhalini aclıq və səfalətlə üz-üzə qoyurdu.

Belə bir zamanda Ulu Öndər H.Əliyevin ölkə prezidenti seçilməsi ilə ölkədə siyasi sabitliyin bərqərar olması və yeni iqtisadi sistemə uyğun iqtisadi islahatlara rəvac verildi. Ölkə qarşısında duran əsas məsələ iqtisadi müstəqilliyin təmin olunması və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasından ibarət idi. Bunun üçün yoxsulluğun və işsizliyin təhlili, bu sahədə dövətin imkanlarının artırılması istiqamətində və məşğulluq məsələlərinin həlli ön plana çəkilirdi.

**Yoxsulluğun azaldılması sosial rifahın yüksəldilməsinin əsas şərtidir**

Yoxsulluq problemi, onun sosial-iqtisadi nəticələri, dinamikası və meyilləri inkişaf səviyyəsinin mövcud durumundan asılı olur. Yəni, sosial-iqtisadi inkişafın əsas istiqamətləri, onun meyilləri və qanunauyğunluqları yoxsulluğun azaldılmasında mühüm rol oynayır.

Bunun üçün ölkədə siyasi sabitliyin təmin olunması, iqtisadiyyatın sahələri üzrə inkişaf prioritetliyinin müəyyənləşdirilməsi, sosial - iqtisadi inkişaf proqramlarının işlənməsi, xarici və daxili investisiya axınına stimullaşdırıcı mühiti yaradan qanunvericilik bazasının formalaşdırılması kimi mühüm tədbirlər həyata keçirilməlidir. Qeyd olunanların müvəffəqiyyətli həlli əhalinin sosial - iqtisadi təminatının yaxşılaşdırılmasına real zəmin yaradır.

Yoxsulluğun ləğvi üçün əsas göstərici iqtisadi potensial, məşğulluq səviyyəsi və adambaşına düşən ümumi daxili məhsul, yaxud geniş istehlak fondu götürülür. Daha çox istehlaka təsir etmək, onun həcmi və strukturunda maksimal səmərə yaratmaq üçün bazarın təşkilinə və alıcılıq qabiliyyətinə təsir etməkdən ibarət olmalıdır. Bu baxımdan yoxsulluğun səviyyəsinin regional xüsusiyyətləri və respublikada sosial-iqtisadi inkişafın əsas potensial imkanları və perspektivləri ara-

sında uzlaşmanın təmin olunması mühüm əhəmiyyət kəsb edir. [Əlirzayeva T.Ə. 2003, s.70-71]

Əhalinin istehlak səviyyəsinin mənbəyi olan iqtisadi potensialdan səmərəli istifadə, mülkiyyət münasibətlərindən asılı olmayaraq məşğulluğun təmin edilməsi, əhalinin istehlakında xidmət sferasının payının artırılması, intellektual mülkiyyətin effektiv qiymətləndirilməsi və ondan istifadənin sosial-iqtisadi səmərəsinin yüksəldilməsi və yoxsulluğun azaldılmasının həlli istiqamətləri kimi qiymətləndirilə bilər.

Yoxsulluğun azaldılması məqsədi ilə təşkilati-iqtisadi potensialın səmərəli təşkili və idarə olunmasını da mühüm istiqamət hesab etmək olar. Respublikada təbii ehtiyatların, karbohidrogenlərin və insan resurslarının iqtisadi dövriyyəyə cəlb edilməsi üçün investisiya proqramları, onların təşkili və respublikada pul-maliyyə-kredit mexanizmlərinin təkmilləşdirilməsi birbaşa ümumi rifah və yoxsulluğun həddinin aşağı salınmasının əsas istiqaməti kimi formalaşar. Son onillikdə respublikada aparılan struktur reformaları, neft kontraktları, neft və qaz kəməri, İpək Yolu və digər beynəlxalq səviyyəli kontraktlar məhz Azərbaycanda formalaşmış iqtisadi potensialın istifadəsi, yeni istehsal və bölgü münasibətlərinin təkmilləşdirilməsi, habelə digər sahələrin inkişafına təməl və əsas yaradılmasına imkan verməkdədir.

Ölkəmizə investisiya axını iqtisadi səmərə gətirir. Bu səmərənin bölgüsündə maraqlar, xarici və daxili investorların payı və onların gəlirlərinin bölgüsü mexanizmləri investisiyanı stimullaşdırır. Transmilli kompaniyaların istehsal şəraiti daxili investorlara nisbətən daha səmərəli olduğu üçün onların rəqabət mühiti şəraitində inkişafına səbəb olur. Belə ki, daha ucuz işçi qüvvəsi və yerli təbii resurslara əsaslanan ixtisaslaşmış istehsal və xidmət obyektlərinin inkişafı, yüksək gəlir və əlavə mənfəət gətirməsinə səbəb olur. Bu mənfəət və gəlirlərin regionda yerli əhalinin əmək gəlirlərinə, dövlət büdcəsinə və sosial infrastrukturanın inkişafına yönəldilməsi son nəticədə əhalinin məşğulluğu və transfert gəlirlərinin artımına səbəb olur.

Strateji inkişaf baxımından əldə olunan gəlirlər və mənfəət yoxsulluğun həlli üçün əsas mənbə rolunu oynayır. Burada alternativ hal kimi vəsaitlər və mənfəət, yeni iş yerlərinin açılması məqsədi, yaxud transfert xərcləri kimi istifadə oluna bilər. Variantların seçilməsi artıq əhalinin yaş tərkibi və onların yaşaması üçün lazım olan resursların istifadəsinin vacibliyindən asılıdır. Azərbaycan Respublikasında yoxsulluğun azaldılmasını iki əsas sektor və istiqamət üzərində həll etmək olar:

- yoxsulluq həddinin faktların əsas səbəblərinə görə təhlil edib, onların sosial müdafiə tədbirləri yolu ilə ehtiyaclarını ödəməklə;
- yeni iş yerləri və yaxud xüsusi və təsərrüfat üçün ilkin kapital və şərait yaratmaqla istehsal və xidmət sferasında məşğulluğu təmin etməklə.

Təhlillər göstərir ki, sosial müdafiə kontingentlərinin tam dövlət təminatı mərhələ-mərhələ baş verir. Belə ki, işləyən pensiyaçılar, kənd yerlərində demoqrafik vəziyyətindən asılı olmayaraq bütün əhaliyə verilən torpaq payı, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən yaşlılar və həmçinin uşaq əməyindən istifadə imkanları respublikada yoxsulluq həddində yaşayanların ancaq dövlət təminatı vasitəsi ilə həll olunma yükünün tənzimlənməsini çətinləşdirir. Ona görə də pensiya, təqaüd və müavinətlər elə qoyulmalıdır ki, onun yuxarıdakı heç də həmişə sərfəli olmayan mənbələri də nəzərə alınmaqla əhalinin rifahında yaşayış minumumu səviyyəsi təmin oluna bilsin. Yoxsulluğun azaldılması hər bir ailədə bölgünü və cəmiyyətdə yenidənbölgünü nəzər alan xüsusi fondların yaradılması, həmçinin məqsədli fondların formalaşması yolları ilə reallaşdırılır. Azərbaycan üçün xarakterik olan qaçqınlıq və köçkünlük amili ilə şərtlənən yoxsulluq probleminin həlli yolları xüsusi istiqamətlə təmin olunur.

Yoxsulluğun ərazi üzrə yerləşməsi, onun azaldılması ilə həmin regionlarda əhalinin məşğulluğu və sosial infrastrukturun düzgün istifadəsi yolu ilə bütövlükdə kompleks regional xarakter kəsb edir. Məşğulluğun ərazi quruluşu, sahibkarlığın regional xarakteri adətən kommunal və kommunikasiya elementləri çox olan ərazilərdə daha intensiv inkişaf edir. [Rüstəmov A.A. 2003, s.349]

**Sosial - iqtisadi inkişafın struktur strategiyası**

Sosial-iqtisadi inkişafın struktur dəyişmələri mövcud strukturun səmərəli iqtisadi struktura çevrilməsi strategiyasını nəzərdə tutur. Belə ki, əmaktutumlu, yaxud kapitaltutumlu fəaliyyətlərin, da-

xili bazar, yaxud xarici bazara istiqamətlənmiş fəaliyyətlər, həmçinin istehsal, emal və satış arasında nisbətlərin yoxsulluğun azaldılması və rifah baxımından tənzimlənməsi zəruriyyəti meydana çıxır.

Təhlillər göstərir ki, əməktutumlu sahələrin inkişafı daha çox işçi qüvvəsi tələb edən, əmək haqqı xərclərinin xərc strukturunda xüsusi çəkisinə görə yuxarı olan sahələrin inkişaf səviyyəsindən asılıdır. Yoxsulluğun həddinin yuxarı olması şəraitində əməktutumlu sahələrin inkişafı əsasən ucuz işçi qüvvəsinə əsaslanır. Bu isə öz növbəsində yoxsulluğun xronoloji prosesə çevrilməsinə səbəb olur. İnvestisiya tutumlu sahələrdə əməkhaqqı xərcləri ilə fondlarla silahlanma, yaxud elmi-texniki tərəqqinin tətbiqi ilə bağlı xərclərin arasında tarazlığın yaradılmasına və son nəticədə inteqral səmərənin əldə olunmasına səbəb olur. Əməkhaqqı xərcləri gəlirlərin və istehlak bazarında alıcılıq qabiliyyətinin, ümumi daxili məhsulun istehsal və istehlak strukturundakı zəruri əmək xərcləri ilə onun alıcılıq qabiliyyətini maddi-əşya formasında reallaşdırır.

Sosial-iqtisadi inkişafın nəticələri dövlət büdcəsinin, həmçinin büdcədənkənar vəsaitlərin ümumi daxili məhsulun maliyyə əsaslarını yaradır. Dövlət büdcəsinin xərcləri, cari və perspektiv xərcləri əhatə edir. Cari xərclər sosial sahələr və əməkhaqqı, sosial müdafiə və bir sıra borcların ödənilməsi xərcləridir. Perspektiv xərclər rifahın perspektiv həlli və kadr hazırlığı üçün kapitaltutumlu xərclərdir. Hər bir istehlak özünəməxsus təkrar istehsal səmərəsi yaradır. Məhz bu səmərənin dəyər kəmiyyəti və həmin səmərənin istifadəsi əsaslı kapital qoyuluşunun istiqamətlərini müəyyən edir. (Экономический анализ стран. Из кризисного состояния к стабильному развитию. Документ Всемирного Банка, 1993 г., Вашингтон, округ Колумбия, 1994, 223 ст.)

Adətən, investisiya tələbatının ödənilməsi xarici investisiyaların və yerli resursların hesabına baş verir. İnvestisiyanın 70%-nin xarici investisiya mənbəyi hesabına ödənilməsi iş yerlərinin və bazarda istehlakın artımına səbəb olur. Büdcə xərclərinin prioritet istiqamətləri, iqtisadi artımın sonrakı dinamikası və həyat səviyyəsinin perspektiv inkişafı üçün şərait yaratmaq imkanları ilə ölçülür.

Sosial müdafiə xərcləri cari istehlak üçün istifadə olunsa da, onun təhsil və səhiyyə sahələrindəki artımı bu sahələrin maddi-texniki bazasının artırılması, təhsilin və səhiyyə işçilərinin rifahı üçün şəraitin yaradılmasına səbəb olur. Təhsil sahələrinin inkişafı əhalinin ömür müddətinin, ailə xərclərinin və sağlamlığın qorunması ilə sosial-iqtisadi səmərə əldə etməyə ən əlverişli şərait yaradır. Səhiyyənin inkişafı, onun sosial-iqtisadi səmərəsi bu xidmətin istehlakçıları arasında bölünür. Pulsuz səhiyyə xidməti dövlət büdcəsi vasitəsi ilə maliyyələşdirilir və bu xidmətin bütöv bazar qiymətində onu mənimsəyən ailələrin məcmu gəlirləri və geniş istehlak quruluşunu müəyyən edir.

Dövlət büdcəsi iqtisadi inkişafın törəməsi kimi, cari maliyyə ili üçün potensial imkanları müəyyənləşdirdiyinə görə onun strukturunda həmçinin prioritetlər kredit forması ilə də təmin olunur. Regional siyasətin formalaşması, kənd təsərrüfatı və iqtisadiyyatla bağlı sahələrin inkişafı üçün büdcə xərclərinin artımı və kredit şərtinin sadələşdirilməsi sahibkarlığın inkişafı ilə rifaha təsir edir. [Əlirzayev Ə.Q. 1989, s.112]

Əməkhaqqının artırılması, əmtəə və xidmət bazarının tənzimlənməsi əhalinin rifahını yaxşılaşdırır. Digər hallarda əmtəə və xidmət bazarında istehlak seqmentinə uyğun təklif təmin olunmursa, onda inflyasiya və qiymətlərin qalxması baş verir. Əhalinin rifahı dövlət büdcəsindən, büdcədənkənar fondların və xüsusi vəsaitlərin istifadəsi hesabına formalaşır. Bir çox müəssisələrdə normativ əməkhaqqı göstəriciləri kənarlaşaraq, əməkhaqqı görülən işin kəmiyyət və keyfiyyətinə görə müəyyən edilir. Tikinti sahəsində, xidmət və digər nəticə ilə ölçülən sahələrin əsas əməkhaqqı fondu və onun hər bir işçiyə verilən hissəsi fərdi əməklə ölçülür. Sahələrin son məhsul, yaxud xammal istehsal etməsindən asılı olaraq, yaxud bazarda yüksək əmtəə və xidmətin tələbatına uyğun olaraq artırsa onda gəlirlər də artır. Gəlirlərin əsas hissəsi muzdlu əməyə görə verilən haqq, tələb və təkliflə müəyyən olunur. Yalnız əməkhaqqının artım tempi əmək məhsuldarlığı ilə uzlaşdıqda həmin əməyə stimul yaranır.

Yoxsulluğun azaldılması və sosial-iqtisadi inkişaf arasında vəhdət ayrı-ayrı sahələrin aparıcı rolunu qiymətləndirmək, onun inkişafına şərait yaratmaq və perspektiv inkişafını müəyyən etməklə baş verməlidir.

Bu baxımdan hazırda neft sektorunun sosial-iqtisadi nəticələri cari, perspektiv tədbirlər üçün istifadə olunur. İlkin növbədə dövlət büdcəsinin formalaşmasında gəlir mənbəyi kimi vergi daşıyıcısı rolunu oynayır. Digər tərəfdən neft məhsullarının ixracı respublikada valyuta ehtiyatlarının əsas mənbəyinə çevrilmişdir. Azərbaycanda əmtəə-pul dövriyyəsinin müəyyən hissəsi valyuta haqq - hesabları ilə reallaşır. Valyuta mənbəə kimi ixracyönlü məhsulların istehsalı, inteqrasiya sistemində ölkənin xüsusi çəkisini artırır. Əmtəə ixracı yeni iş yerlərinin açılması ilə bağlıdır. Son illərdə idxal və ixrac balansında ixracın idxalı örtməsi müsbət saldo ilə ifadə olunur. İdxalın strukturu istehsal yönlüdürsə, onun sosial-iqtisadi nəticələri yeni iş yerlərinin açılmasına və əlavə gəlir gətirilməsinə səbəb olur. Ona görə də sosial-iqtisadi inkişaf tendensiyasında maliyyə balanslarının tərtibi, onun əsas mənbələri iqtisadi və sosial inkişafla əhali rifahı arasında tarazlılıq yaradır.

İdxalın tənzimlənməsi yerli istehsalın inkişafına istehsal yönlü fəaliyyət üçün gömrük güzəştlərinin tətbiqi, investisiya xarakterli kapitala vergi qoyulması, ölkəyə gələn resursların artımına stimul yaradır. Azad ticarət və liberal iqtisadi siyasət şəraiti əmtəə və xidmət istehsalının marketinq strukturunun rəqabət mühiti şəraitində yeniləşməni tələb edir.

Sosial-iqtisadi inkişaf və sahibkarlıq problemləri ayrı-ayrı aspektlərdən öyrənilsə də, rifah problemləri baxımından sahibkarlığa stimullar yaratmaq, yeni iş yerləri açmaq və gəlir gətirmək qabiliyyətinə malikdir. Sahibkarlığın inkişafı ilə əhali rifahını yüksəltmək üçün dövlətin iqtisadi maliyyə və resurs potensialından daha səmərəli istifadə olunması tətbiq olunur. Sahibkarlığın yoxsulluğun azaldılmasında rolunu daha da artırmaq məqsədi ilə onun ilkin şəraiti və bir sıra tədbirlərin həyata keçirilməsi, məşğulluğun təminatına və əhalinin rifahına təsir edir. Kiçik biznes fəaliyyəti, fərdi təsərrüfat forması bir sıra digər təsərrüfatların təşkili və idarə olunması, mühüm və səmərəli inkişaf strategiyası olaraq respublikada maddi və mənəvi nemətlərin və əhalinin gəlirlərinin artımı üçün aparıcı təsərrüfat həlqəsidir.

Respublikada sahibkarlığın inkişafının ilkin şəraiti dövlət himayəsi yolu ilə təmin olunur, o cümlədən, dövlət resursları, müəssisə və təşkilatların xüsusi vəsaitləri, sahibkarlıq və həmçinin respublikada fəaliyyət göstərən xarici şirkətlərdə yerli əhali və yerli resurslardan istifadə istiqamətləri ərazidə kompleks sosial-iqtisadi inkişafın əsas istiqamətləridir. Aqrar sektorun inkişafı üçün neft gəlirləri, xarici investisiyalar sayəsində ənənəvi sahələr olan üzümçülüyün və şərabçılığın inkişafı tütün istehsalı və emalı, ət və ət məhsulları, süd və süd məhsulları, meyvə-tərəvəz və konserv istehsalı, həmçinin mülkiyyət münasibətlərindən asılı olmayaraq, xidmət sahələri və istehsal infrastrukturu da sosial - iqtisadi inkişafın əsas istiqamətləridir.

Respublikada yerli əhalinin tələbatı və xarici ölkə vətəndaşlarının iş görmək intensivliyi, kapital axının və ərazi iqtisadi - sosial potensialın həcmini və onun strukturunu müəyyən edir.

İqtisadi potensial kimi mövcud istehsal gücləri və onların mülkiyyət formasından asılı olmayaraq istifadə səmərəsi sosial - iqtisadi inkişafda mühüm rol oynayır. Sosial və intellektual potensialda mövcud insanlar, təbii artım, onların istehsal və istehlak qabiliyyətləri əsas yer tutur. Hər iki potensial növü bir-birinə uyğun kəmiyyət və keyfiyyət seqmentləri ilə uyğunlaşdıqda alınan multiplikasiya səmərəsi də yüksək olur. Sosial potensialın maddi tərəfi onun istehlak davranışı, istehsalda yaranan gəlirlə və onun bölgüsü ilə səciyyələnir.

Əhali gəlirlərinin mənbəyi və formaları iqtisadi potensialın təkrar istehsalı sxemi və metodları ilə müəyyən olunur. Sosial amil olaraq əhalinin sosial kontingent kimi tipləşdirilməsi və onların dinamikasının proqnozu verilməklə, iqtisadi amil və resursların təsnifatlaşdırılması baş verməlidir. Nə qədər bu uyğunluq baş verirsə, bir o qədər optimal əlaqə yaranır.

Yuxarıda qeyd olunan maddi resurslar maddi təminatın tərkib hissəsi olduğundan xammal və təbii sərvətlərdən istifadə səviyyəsi və yeni texnologiyalardan istifadə amili mühüm əhəmiyyət kəsb edir. Xammal və təbii ehtiyatların emalı, onun ixracı üçün xarici investisiyaların ölkəyə gətirilməsi və yeni texnologiyaya üstünlük verilməsi, ucuz işçi qüvvəsi, xammalla istehsal və emal sənayesi, transmilli kompaniyaların yardılması son nəticədə ixraca baza yaradır və resursların təkrar istehsalı üçün əsas verir.

Azərbaycanın sosial-iqtisadi inkişafı üçün resurs təminatının əsas aparıcı həlqəsi ölkənin əlverişli iqtisadi-coğrafi mühiti, tranzit iqtisadi region olması, Bakı-Ceyhan neft kəmərinin sosial-iqtisadi səmərəsi və Bakı-Şahdəniz, TANAP-TAP qaz kəmərinin və Asiya-Avropa dəhlizi üçün TRASEKA layihəsi, Bakı-Tbilisi-Qars dəmir yolunun, həmçinin gəmi və digər əlaqələr üçün mövcud potensialın olması və perspektivliyi son dərəcədə xüsusi səmərə verir.

Yuxarıda göstərilən beynəlxalq səviyyəli layihələrin respublikada həyata keçirilməsi onların sosial infrastruktur təminatı, yeni iş yerlərinin açılması üçün mühüm əhəmiyyət kəsb edir. Respublikanın ərazisində istehsal, istehlak sferası, xidmət və məişət obyektlərinin tikilişi yeni iş yerlərinin açılmasına gətirib çıxarır. Turizmin inkişafı, mehmanxana və mənzil tikintisi, anbarlar, xidmət obyektləri, iaşə obyektləri və həmçinin tranzit yüklərinin daşınması, yerli əhalinin yaşayışı üçün zəruri olan obyektlərin inkişafı respublikada sosial rifahın və yoxsulluğun azaldılmasının köklü istiqamətləridir.




***Sxem 1. Sosial problemlərin sosial-iqtisadi inkişafda rolu.***

Sxemdən göründüyü kimi, sosial-iqtisadi inkişaf aydın və real məqsədlərlə ifadə olunur. İqtisadi artımın, yeni iş yerlərinin, sahibkarlığın və sosial xidmət sferalarının tədqiqi əsas aparıcı həlqə rolunu oynayır. Sahibkarlığın sosial problemləri həm təsərrüfatdaxili, həm də bölgü, mübadilə sferasında formalaşır. Əməkhaqqı firma və şirkətlərin inkişafı ilə onların maliyyə və sosial xərclərini artırır.

Qeyd edilməlidir ki, əhalinin maddi və mənəvi tələbatının ödənilməsi arasında optimal nisbət və tənzimləmə mexanizminin əlaqəli cəhətləri yalnız respublikanın davamlı sosial-iqtisadi inkişafı ilə təmin oluna bilər.

***Cədvəl 1***

***Azərbaycanın toplu maliyyə balansı (mln. manat)***

| | Ölçü vahidi | 2015 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| Dövlət büdcəsinin gəlirləri | mln. manat | 17498.3 | 22149.1 | 24398.4 | 24134.5 |
| O cümlədən mərkəzləşmiş gəlirlər | | - | 21495.3 | 22429.3 | 23359.46 |
| Dövlət büdcəsinin xərcləri | mln. manat | 17785.2 | 23100.6 | 25190.1 | 27492.20 |
| Gəlirlər<br>a) neft sektoru | mln. manat | 26.441 | 24.415 | 22.405 | 21.604 |
| b) qeyri-neft sektoru | mln. manat | 36.449 | 49.74 | 54.32 | 55.32.1 |
| Xarici dövlətlərə verilmiş rüsumlar üzrə | mln. manat | 18.625 | 68.529 | 66.81 | 69.81 |
| Gömrük rüsumları | mln. manat | 94.743 | 76.8000 | 90.000 | 95.000 |
| Digər gəlirlər | mln. manat | 424.7 | 505.7 | 561.6 | 472.5 |

*Mənbə: Az.Dövlət Statistika Komitəsi.2020-ci il rəqəmləri ilə (mln.manat)*

Maliyyə resurslarının artımı iqtisadiyyat üçün lazım olan əsaslı vəsaitin, kapital qoyuluşunun və sosial inkişaf üçün lazım olan maddi və mənəvi nemətlərin məcmusunun artımına zəmin yaradır. Həmçinin resursların tarazlı istifadəsi, məsrəflərin səmərəli variantının seçilməsi, optimal texnoloji layihələrin və sosial səmərəli idarəetmənin hazırlanmasını zəruri edir.

### *Nəticə*

Aparılan təhlil nəticəsində ölkədə yoxsulluğun aradan qaldırılması forma və metodları araşdırılmaqla mahiyyətinə aydınlıq gətirilmişdir. Eyni zamanda ölkədə məşğulluğun təmin olunması məqsədilə iqtisadiyyatın çoxsaylı sahələri üzrə sahibkarlığın inkişafına prioritetlik verilməsi əsaslandırılmışdır. Bununla dövlət büdcəsinin artırılması nəticəsində sosial ayırmaların getdikcə artırılması və ölkə əhalisinin sosial rifahının yaxşılaşdırılması istiqamətləri dəqiqləşdirilmişdir.

## ƏDƏBİYYAT

1. Əlirzayeva T.Ə. Dövlət və əhali gəlirləri arasında əlaqələr. “Odlar Yurdu” Universitetinin elmi-pedoqoji xəbərləri N9-10, 2003, s.70-71.
2. Əlirzayev Ə.Q. İqtisadi artım və maddi rifah. Bakı, 1989, s.112.
3. Rüstəmov A.A.Yeni iqtisadi münasibətlər şəraitində əhalinin maddi rifahının yüksəldilməsinin iqtisadi problemləri, Bakı., 2003, s.349
4. Экономический анализ стран. Из кризисного состояния к стабильному развитию. Документ Всемирного банка, 1993 г., Вашингтон, округ Колумбия, 1994, 223 ст.
5. http://stat.gov.az
6. http://economy.gov.az

*Хиджран Амирхан кызы Мирзоева*
*д.ф.э., доц.*
*akademiya_sm@mail.ru*

*Наила Сабир кызы Сариева*
*Азербайджанская Академия Труда и Социальных Отношений*
*sarıyev.seymur@bk.ru*

## Снижение уровня бедности и основные направления социально-экономического развития Азербайджанской Республики

***Резюме***

Повышение уровня жизни населения страны является приоритетной обязанностью каждого цивилизованного государства. Обеспечение занятости, т.е. создание новых рабочих мест, является одним из основных постулатов обеспечения экономического роста. В статье анализируются вопросы повышения заработной платы, покупательной способности населения, расширение социальных фондов и увеличение их использования, а также анализ государственного бюджета.

**Цель** – причины бедности и основные направления её сокращения.

**Методология** – сравнительный анализ.

**Результат** – обоснованы направления сокращения бедности.

***Ключевые слова: уровень жизни, бедность, заработная плата, занятость, социальные выплаты, государственный бюджет.***

*Hijran Amirkhan Mirzayeva*
*PhD of economics, ass, prof.*
*akademiya_sm@mail.ru*

*Naila Sabir Sariyeva*
*Azerbaijan Academy of Labour and Social Relations*
*sarıyev.seymur@bk.ru*

## Poverty reduction and main directions of socio-economic development in the Republic of Azerbaijan

***Summary***

Improving the living standards of the country's population is the future task of every civilized state. Providing employment, that is, creating new jobs is one of the basic assumptions of economic growth. The article analyzes the issues of increasing salaries, purchasing power of the population, expanding and increasing the use of social funds, analysis of the state budget.

**Purpose -** causes of poverty and main directions of its reduction.

**Methodology**- comparative analysis.

**The results of the investigation**- poverty reduction trends are based.

***Key words: standard of living, poverty, salary, employment, social benefits, state budget.***